

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 70 (22.981)

*17 aprel 2018-ci il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Ü.M.Hüseynlinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri təyin edilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Ülvi Mötəbər oğlu Hüseynli Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 16 aprel 2018-ci il*

## A.M.Babayevin Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun icraçı direktoru təyin edilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Anar Mehti oğlu Babayev Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun icraçı direktoru təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 16 aprel 2018-ci il*

## Nehrəm İmamzadəsi bərpa olunmuşdur







Ümummilli liderimiz Heydər Əliyev "Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti"ndə deyirdi: ***"Biz nadir bir irsin varisləriyik. Hər bir Azərbaycan vətəndaşı bu irsə layiq olmağa çalışaraq böyük bir tarixi keçmişi, zəngin mədəniyyəti, yüksək mənəviyyatı olan ölkəmizin həm dünəninə, həm bu gününə, həm də gələcəyinə dərin bir məsuliyyət hissi ilə yanaşmalıdır".***

Bu gün muxtar respublikada tarixi-mədəni irsimizə hörmətlə yanaşılır. Min illərin yadigarı olan abidələrimiz bərpa olunaraq qorunub yaşadılır, gələcək nəsillərə çatdırılır. Nehrəm İmamzadəsində bərpa işlərinin aparılması da bu sahədə görülən işlərin davamıdır.

Aprelin 14-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Nehrəm kəndinə gəlmiş, imamzadədə aparılan bərpa işləri ilə tanış olmuşdur.

Məlumat verilmişdir ki, XVIII əsrdə inşa olunmuş Nehrəm İmamzadəsi İslam müqəddəsləri ilə əlaqədar yaranmış memarlıq nümunələrindəndir. Burada yeddinci imam Musa Kazımın oğlu Seyid Əqil dəfn olunmuşdur. Aşağı hissəsi kvadrat şəklində olan abidənin tavanı tağvari günbəzlə örtülmüşdür. Bərpa işləri aparılarkən türk-islam memarlıq elementlərindən istifadə olunmuş, imamzadənin tarixi görkəmi qorunub saxlanmışdır.

İmamzadə ilə tanışlıqdan sonra yeddinci imam Musa Kazımın oğlu Seyid Əqilin ruhuna fatihə oxunmuşdur.

Ali Məclisin Sədri muxtar respublikada İslam tarixinin bir hissəsi olan imamzadələrin bərpa olunduğunu diqqətə çatdırmış, onların yaranma tarixlərinə nəzər salmış, imamzadələrin əsrlərdən bəri ziyarətgah və inanc yeri kimi fəaliyyət göstərdiyini bildirmişdir. Ali Məclisin Sədri Nehrəm İmamzadəsinin tarixi abidə və ziyarətgah kimi qorunub saxlanması, imamzadə haqqında bələdçi mətninin hazırlanması barədə tapşırıqlar vermişdir.

Babək Rayon Dini İcmasının sədri Şahin İsmayılov rayon əhalisi və dindarları adından minnətdarlıq edərək demişdir ki, muxtar respublikada tarixi-mədəni irsimizə qayğı göstərilir, mənəvi dəyərlərimiz qorunub yaşadılır. Yeni məscidlər tikilir, ziyarətgahlarımız bərpa olunur, dindarlar üçün hərtərəfli ibadət şəraiti yaradılır. Nehrəm İmamzadəsinin bərpa olunması da tarixi və dini-mədəni irsimizə göstərilən qayğının daha bir ifadəsidir.

İmamzadənin həyətində də geniş abadlıq işləri aparılmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Əhaliyə göstərilən avtonəqliyyat xidmətinin keyfiyyəti artırılıb

2018-ci ilin birinci rübündə muxtar respublikada avtonəqliyyat xidmətinin səviyyəsinin yüksəldilməsi üçün bir sıra tədbirlər həyata keçirilmişdir. Bu dövrdə daşımalarla məşğul olan hüquqi və fiziki şəxslərin maarifləndirilməsi işi genişləndirilmiş, ayda bir dəfə Naxçıvan Avtobus Parkında sərnişin daşımalarını yerinə yetirən sahibkarların və sürücülərin iştirakı ilə seminar-müşavirə keçirilmişdir. Nazirlik tərəfindən şəhərdaxili nəqliyyatın intensiv və keyfiyyətli fəaliyyətini təmin etmək, 2017-2018-ci illərin payız-qış mövsümünü uğurla başa vurmaq üçün Naxçıvan Şəhər Təsərrüfathesablı Nəqliyyat İdarəsinin fəaliyyəti daim nəzarətdə saxlanılmışdır.

Muxtar respublikadan Türkiyə Respublikasının müxtəlif şəhərlərinə avtobus marşrutlarının fəaliyyəti davam etdirilmiş, hər gün iki reys olmaqla, Naxçıvan-İqdır və əks-istiqamətdə sərnişindaşıma həyata keçirilmişdir. 2018-ci ilin birinci rübündə Naxçıvan-Bakı-Naxçıvan marşrutu üzrə Naxçıvandan Bakıya 3254, Bakıdan Naxçıvana isə 3318 sərnişin daşınmışdır.

Muxtar respublika daxilində sərnişindaşıma xidmətinin səviyyəsi daha da yüksəldilmiş, rayon mərkəzləri və kəndlərin hamısı marşrutla təmin edilmiş, sərhəd kəndlərinə və ucqar dağ kəndlərinə işləyən marşrut avtobuslarının fəaliyyəti xüsusi nəzarətdə saxlanılmışdır. Həmçinin taksi və avtobus sürücülərinin muzeylərə 12 dəfə ekskursiyaları təşkil olunmuşdur.

***Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyinin mətbuat xidməti***

***Kəngərli rayonunda təşkil olunan növbəti əmək yarmarkasını giriş sözü ilə rayon Məşğulluq Mərkəzinin direktoru Səxavət Həsənov açaraq əhalinin məşğulluğu istiqamətində görülən işlərdən danışıb.***

## Növbəti əmək yarmarkası olub



Qeyd edilib ki, bir insanın əmək fəaliyyəti, məşğulluğu təkcə onun və ailəsinin maddi tələbatının ödənilməsinin təminat vasitəsi kimi dərk olunmur, daha geniş anlamda, ümumən, cəmiyyət və məmləkət üçün faydalı olan, daim yeniliyə, iqtisadi irəliləyişə xidmət edən bir proses kimi dəyərləndirilir. Kəngərli Rayon Məşğulluq Mərkəzi tərəfindən işaxtaran vətəndaşların əmək bazarına inteqrasiyasını asanlaşdırmaq və sürətləndirmək məqsədilə aktiv məşğulluq tədbirlərinin təkmilləşdirilməsi istiqamətində məqsədyönlü işlər aparılır.

Rayon İcra Hakimiyyəti başçısının müavini Hacırəddin Mehbalıyev belə tədbirlərin rayonda fəaliyyət göstərən qurumların ixtisaslı kadrlarla təminatında mühüm rolu olduğunu deyib.

Vurğulanıb ki, muxtar respublikada, eləcə də Kəngərli rayonunda yeni iş yerlərinin açılması, infrastrukturun ən müasir tələblər səviyyəsində qurulması sosial rifahın təmin olunmasına müsbət təsir göstərib. Əmək potensialının keyfiyyətcə yüksəldilməsi, layiqli əməyin təminatı, iş yerlərində sağlam və təhlükəsiz əmək şəraitinin təşkil edilməsi qarşıda duran əsas vəzifələrdəndir.

Sonra yarmarkaya gələnlər boş iş yerləri ilə tanış olublar. 8-i özəl müəssisə, 8-i isə dövlət orqanı olmaqla, ümumilikdə, 16 təşkilatdan 170 boş iş yerinin çıxarıldığı yarmarkada 35 nəfərə işə göndəriş verilib. Müraciət edənlərin 4 nəfəri peşə hazırlıq kurslarına cəlb olunub ki, onlardan da 3-ü gələcəkdə kənd xidmət mərkəzlərində işlə təmin olunacaqlar. Bundan başqa, ünvanlı dövlət sosial yardımı almaq üçün müraciət edən 2 nəfər işə göndəriş alıb.

**Xəbərlər şöbəsi**

## Türkiyənin Ərzurum şəhərində "Heydər Əliyev və Türk dünyası" mövzusunda beynəlxalq elmi simpozium keçirilib

*Aprelin 13-də və 14-də Türkiyənin Ərzurum Atatürk Universitetində ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş "Heydər Əliyev və Türk dünyası" mövzusunda beynəlxalq elmi simpozium keçirilib.*



Simpozium iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş sərgiyə baxıblar.

Dövlət himnləri səsləndirildikdən sonra Ərzurum Atatürk Universitetinin rektoru, professor Ömer Çomaklı çıxış edərək rəhbərlik etdiyi ali təhsil ocağında belə bir konfransın keçirilməsinin qürurverici olduğunu diqqətə çatdırmış, ulu öndər Heydər Əliyevin Türkiyə-Azərbaycan əlaqələrinin yaradılması və inkişafı sahəsindəki xidmətlərindən, eləcə də müasir dövrdə ikitərəfli münasibətlərin inkişafı sahəsində görülən işlərdən danışmışdır.

Naxçıvan Dövlət Universitetinin rektoru, professor Saleh Məhərrəmov konfransda çıxış edərək demişdir ki, Heydər Əliyev siyasi və dövlətçilik fəaliyyəti dövründə Azərbaycanın hərtərəfli inkişafına, müstəqilliyinin möhkəmləndirilməsinə, dünya birliyində layiqli yerini tutmasına nail olmuşdur. Dahi şəxsiyyətin siyasi-ideoloji fəaliyyəti təkcə Azərbaycanla məhdudlaşmayıb, bütövlükdə, Türk dünyasını əhatə etmişdir. Türk xalqları arasında mədəni əlaqələrin gücləndirilməsinə xüsusi əhəmiyyət verən ulu öndərin Türk dünyasının gələcəyi ilə bağlı fikirləri müstəqil türk dövlətləri ilə əlaqələrdə mühüm yer tuturdu. Türk dövlətlərinin müstəqilliyinin müdafiəsi, mövcud imkanlar çərçivəsində Türk dünyasının birliyinin təmin olunması, qüvvələrin birləşdirilməsi, beynəlxalq nüfuzunun daha da gücləndirilməsi və bunun üçün müstəqil türk dövlətlərinin imkanlarından istifadə edilməsi ulu öndər Heydər Əliyevin qarşıya qoyduğu əsas vəzifələr idi. Bu məqsədlərin həyata keçirilməsində O, Türkiyə Cümhuriyyətinin rolunu yüksək qiymətləndirmişdir. Ulu öndərin hakimiyyətə qayıdışından sonra Azərbaycanla Türkiyə arasında əlaqələrin əsası qoyulmuş və bu gün bu əlaqələr strateji tərəfdaşlıq səviyyəsinə yüksəldilmişdir.

Qeyd olunmuşdur ki, tarixi-siyasi, dini, milli-mənəvi köklərə bağlı Azərbaycan-Türkiyə münasibətlərinin bütün sahələrdə sürətli inkişafı Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir", ümummilli lider Heydər Əliyevin isə ***"Biz bir millət, iki dövlətik"*** fikirlərinə əsaslanmışdır. Heydər Əliyevin xarici siyasətində Türkiyə ilə əməkdaşlıq ilk sıralarda yer almış, Azərbaycan-Türkiyə əlaqələri, türkdilli dövlətlərin siyasi və iqtisadi əməkdaşlığı regional əməkdaşlığın genişlənməsi üçün mühüm əhəmiyyət kəsb etmişdir. Ümummilli lider Heydər Əliyev Türkiyə ilə qardaşlıq bağlarını möhkəmlətməklə bərabər, Mərkəzi Asiyadakı türk respublikaları ilə də sıx əməkdaşlığı prioritet saymışdır.

Dünyanın siyasi mənzərəsini dəyişən "Əsrin müqaviləsi", "Böyük İpək Yolu", TRASEKA, TASİS proqramları kimi qlobal layihələrin həyata keçirilməsində, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının, TÜRKSOY-un, Türk Yazarlar Birliyinin yaradılmasında ümummilli lider Heydər Əliyevin xidmətləri hər zaman xatırlanır. Bundan əlavə, Məhəmməd Füzulinin 500, Türk dünyasının ana kitablarından olan "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileyinin YUNESKO səviyyəsində keçirilməsi, Azərbaycanın müstəqil türk dövləti kimi bütün dünyada tanınması, türk dövlətləri başçılarının zirvə görüşlərinin təşkili, Türk dünyası üçün onlarla taleyüklü məsələlərin irəli sürülməsi və müzakirəsi ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər Heydər Əliyev "Manas" dastanının 1000, böyük qazax şair-filosofu Abayın 150, Özbəkistanın böyük dövlət xadimi, Türk dünyasının böyük şəxsiyyəti Əmir Teymurun 660, qazax şairi A.Kunanbayevin 125, özbək yazıçısı M.Şeyxzadənin 70 illik yubileylərinin Azərbaycanda qeyd olunmasını böyük tarixi hadisələr kimi çox yüksək qiymətləndirmişdir. Ulu öndər Heydər Əliyev türk dövlət başçılarının 1994-2001-ci illərdə keçirilmiş 6 sammitinin hamısında iştirak etmiş və bu əməkdaşlıq formatında Azərbaycanın təşəbbüskar mövqeyi hər zaman ifadə olunmuşdur.

Ümummilli lider Heydər Əliyev türk xalqlarının yaxınlaşması zəruriliyindən bəhs edərək demişdir: ***"Xalqlarımız əsrlər boyu bir-birinə yaxın dost olmuşlar. Biz bir kökdənik, biz birdilli xalqlarıq. Bizim milli ənənələrimiz çox yaxındır, bir-birinə bənzərdir, oxşardır. Ona görə də bunlar hamısı xalqlarımızı hələ biz müstəqil olmadığımız vaxtda, ayrı-ayrı dövlətlərin əsarəti altında yaşadığımız vaxtda da bir-birimizdən ayırmayıb, bir-birimizə bağlayır, bir-birimizlə daha sıx əlaqədə saxlayır. İndi isə xalqlarımız öz müstəqilliyini əldə edəndən sonra, müstəqil dövlət kimi dünyada tanınandan sonra biz tarixi ənənələr əsasında, həmin fundamental əsaslar üzərində bundan sonra da irəliyə getməliyik, inkişaf etməliyik".***

Azərbaycanın Türkiyədəki fövqəladə və səlahiyyətli səfiri Xəzər İbrahim ulu öndər Heydər Əliyevin Azərbaycanın xilası, müstəqilliyinin möhkəmləndirilməsi və qardaş Türkiyə ilə əlaqələrinin inkişafındakı xidmətlərindən bəhs edib.

Ərzurum bələdiyyəsinin sədri Mehmet Sekmen ümummilli liderin türkdilli ölkələr arasında əlaqələrin qurulmasındakı fəaliyyətindən bəhs edib, konfransın Ərzurum şəhərində keçirilməsindən qürur hissi duyduqlarını vurğulayıb. Bələdiyyə sədri ümummilli liderə ehtiram əlaməti olaraq Ərzurum şəhərində dahi şəxsiyyət Heydər Əliyevin adına park salındığını da diqqətə çatdırıb.

Türk millətinin şanlı tarixinin hər dövründə böyük liderlər yetişdirdiyini qeyd edən Ərzurum valisi Seyfəddin Əzizoğlu Azərbaycanın bölgədə inkişaf və tərəqqisinin, sabitliyinin təmin edilməsinin ulu öndərin adı ilə bağlı olduğunu bildirmişdir.

Qeyd edək ki, beynəlxalq simpozium 11 ölkənin 13 universitetində "Heydər Əliyev: "Multikulturalizm və tolerantlıq ideologiyası" mövzusunda təşkil olunan silsilə tədbirlər səviyyəsində keçirilir. Konfransın işində Azərbaycan, Türkiyə, Qazaxıstan, Rusiya və Gürcüstandan 52 nümayəndə iştirak edib. Konfrans öz işini 12 seksiyada davam etdirib.

Bölmə iclaslarında Azərbaycan tarixi kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru Sevinc Abbasovanın "Ulu öndər Heydər Əliyev və Türkiyə-Naxçıvan əlaqələri" (1991-1993), universitetin İncəsənət fakültəsinin kafedra müdiri, pedaqogika üzrə fəlsəfə doktoru Mehriban Cəfərovanın "Heydər Əliyev irsində milli mədəniyyətin yeri, rolu və əhəmiyyəti" mövzularında çıxışları dinlənilib.

**Naxçıvan Dövlət Universitetinin Mətbuat şöbəsi**

## Sahibkarlığa dövlət dəstəyi artıb

***Muxtar respublikamızın müasir sosial-iqtisadi inkişafının əsas faktorları arasında sahibkarlıq fəaliyyəti mühüm yer tutur. Bu sahənin genişləndirilməsi və iqtisadiyyatın şaxələndirilməsi diqqət mərkəzindədir. Belə ki, sahibkarlığın daha da inkişaf etdirilməsi, onun rəqabətqabiliyyətliliyinin artırılması istiqamətində həyata keçirilən tədbirlər öz bəhrəsini verib və Naxçıvan Muxtar Respublikası ölkəmizdə investisiya cazibədarlığı baxımından liderdir. Qazanılmış müsbət təcrübə ilə cari ildə muxtar respublikamızda sahibkarlığa, xüsusilə də kiçik sahibkarlığa dövlət dəstəyi davam etdirilməkdədir.***

Tarixi təcrübə sübut edir ki, iqtisadiyyatda qarşıya qoyulmuş məqsədlərə çatmaq üçün dövlət-sahibkar münasibətlərinin inkişaf etdirilməsi mühüm şərtlərdəndir. Muxtar respublikamızda müasir inkişaf mərhələsində sahibkarlıq fəaliyyətinin təşviq olunması, məhsulların ixrac imkanlarının genişləndirilməsi və yeni layihələr üçün kredit dəstəyinin verilməsi bu sahənin uğuru üçün vacib məsələlər kimi daim diqqətdə saxlanılır. Bu baxımdan muxtar respublikamızda iqtisadi inkişafın davamlılığının təmin edilməsi məqsədilə yeni sahibkarlıq sahələrinin yaradılması və onlara kredit dəstəyinin göstərilməsi davam etdirilir.

Sahibkarlıq iqtisadiyyatın aparıcı qüvvəsidir. Belə bir lokomotiv gücə sahib olan sahibkarlıq qarşısında isə yeni tələblər qoyulmaqdadır. Belə ki, cari ilin fevral ayının 9-da Naxçıvan Biznes Mərkəzində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin muxtar respublikada fəaliyyət göstərən sahibkarlarla görüşü zamanı dediyi kimi yerli məhsulların daxili və xarici bazarlarda rəqabətədavamlı olması üçün keyfiyyət standartlarına ciddi əməl edilməlidir. Sahibkarlar istehsal prosesində ən müasir texnologiyaların tətbiqinə və keyfiyyətli xammaldan istifadəyə xüsusi diqqət yetirməlidirlər. Onların səmərəli fəaliyyəti üçün isə hərtərəfli şərait yaradılıb. Belə ki, torpaq mülkiyyətçilərinin torpaq vergisi istisna olmaqla, bütün növ vergilərdən azad edilməsi, bu sahədə çalışanlara bir sıra güzəştlərin tətbiq olunması, subsidiyaların verilməsi, ailə təsərrüfatlarının fəaliyyətinin dəstəklənməsi, Sahibkarlığa Kömək Fondunun xətti ilə güzəştli şərtlərlə kreditlərin verilməsi, ixracyönümlü məhsul istehsalının təşviq olunması, habelə mövsüm ərzində yarmarka və festivalların təşkili, satış yerlərində yerli məhsullara üstünlük verilməsi məhsul istehsalçılarının işinə stimullaşdırıcı təsir edən amillərdəndir. Bütün bunlar muxtar respublikada ailə təsərrüfatlarının inkişafına və saylarının artmasına da xüsusilə təsir etməkdədir.



Naxçıvanda sahibkarlıq fəaliyyətinə göstərilən dövlət qayğısı, onlara



verilən güzəştli kredit dəstəyi bu il də davam etdirilir. Naxçıvan Biznes Mərkəzində keçirilən görüş zamanı 11 sahibkara verilmiş toplam 5 milyon manatdan çox kredit vəsaiti sənaye və kənd təsərrüfatı məhsulları istehsalı üzrə müxtəlif sahibkarlıq qurumlarının, habelə ailə təsərrüfatlarının fəaliyyətlərinin genişləndirilməsini nəzərdə tutur. Təqdim olunmuş kreditlərin həcmi ilə yanaşı, onlardan istifadə edəcək sahibkarlıq sahələrinin fəaliyyət profilləri də diqqəti cəlb edir. Belə ki, kredit almış sahibkarlıq subyektlərindən "Cahan Holdinq" Kommersiya Şirkətlər İttifaqının "Cahan Pen" Məhdud Məsuliyyətli Cəmiyyəti plastik boru, profil və aksesuarlar istehsal edəcək, daxili tələbatdan artıq məhsul xarici ölkələrə də ixrac olunacaq. Ayrılmış 5 milyon manatlıq güzəştli kreditin istifadə olunması ilə yeni müəssisədə 285 yeni iş yeri yaradılacaq.

Kredit dəstəyi göstərilmiş digər bir müəssisə "Naxçıvan Tikiş" Açıq Səhmdar Cəmiyyətidir. Bu fabrik istehsal etdiyi geniş çeşiddə geyimlər, müxtəlif idarələrdə çalışanlar, məktəbli və tələbələr üçün formalarla muxtar respublikada əhalinin tələbatını ödəyən mühüm yüngül sənaye müəssisələrindəndir. Hazırda 40 nəfərdən artıq işçisi olan bu müəssisə ötən dövr ərzində iki dəfə Sahibkarlığa Kömək Fondu tərəfindən verilən güzəştli kreditlərdən bəhrələnib, Rusiya, Almaniya və Çin mənşəli avadanlıqlar alınıb quraşdırılıb. Müəssisə üçün ayrılmış 100 min manatlıq yeni kredit vəsaiti onun gələcək fəaliyyəti üçün çox mühüm stimul olacaqdır. Alınacaq rəqəmsal avadanlıqların köməyi ilə kəsim, tikim və pres işlərinin kompüterlə idarə olunması, eyni zamanda enerjiyə, xammala daha çox qənaət etmək və məhsulun keyfiyyətini yüksəltmək mümkün olacaqdır.

Nehrəm özünün yüksəkkeyfiyyətli kənd təsərrüfatı məhsulları ilə tanınır. Elə fiziki şəxs Məhərrəm Niftəliyev də aldığı 25 min manat kredit dəstəyi ilə xırdabuynuzlu heyvandarlıq təsərrüfatını genişləndirməyi qarşısına məqsəd qoyub. Sahibkar damazlıq heyvanlar almaqla heyvanların baş sayını 250-yə çatdırmaq istəyir. O deyir ki, bunun üçün onun hər cür şəraiti vardır.

Şərur rayonunun Arpaçay kəndindən olan sahibkar Abdulla Adıgözəlov istixana təsərrüfatının fəaliyyətinin genişləndirilməsi üçün bu il Sahibkarlığa Kömək Fondundan 50 min manat güzəştli kredit alıb. Sahibkar bu vəsaitlə 3 min kvadratmetr sahədə mövcud olan istixana kompleksini əlavə olaraq 4 min kvadratmetr artırmağı planlaşdırır. O deyir ki, fəaliyyətini genişləndirmək üçün yaxşı imkanlar vardır. Belə ki, indiyə qədər mövsüm ərzində istehsal etdiyi 150-200 ton tərəvəz məhsulunu Şərur, Naxçıvan və Bakı bazarlarında satışa çıxarıb. İstixana təsərrüfatı ilə yanaşı, bağçılıqla da məşğul olan sahibkar biznesi ilə 8 nəfər üçün də iş yeri yaradıb.

Fiziki şəxs Hafizə İsmayılbəyli Kəngərli rayonunun Yeni Kərki kəndində fəaliyyət göstərir. O, meyvə-tərəvəz məhsullarının konservləşdirilməsi üçün aldığı 10 min manatlıq vəsaitlə ailə təsərrüfatını genişləndirmək istəyir. Əsasən, yabanı meyvə və giləmeyvə məhsullarının konservləşdirilməsi üzrə fəaliyyət göstərən bu ailə təsərrüfatında həmərsin, yemişan, zirinc, gilənar kimi yüksəkkeyfiyyətli giləmeyvələrin konservləşdirilməsi həyata keçirilir. Sahibkar deyir ki, ailə təsərrüfatı məhsulu etiketi ilə satışa çıxarılan bu məhsullara böyük tələbat vardır. Onlar Kəngərli və Naxçıvan bazarlarına məhsul çıxarıb əldə edəcəkləri mənfəətlə gələcəkdə fəaliyyətlərini genişləndirmək istəyirlər.

Arıçılıq gəlirli sahədir. Xüsusən Naxçıvan balının keyfiyyəti bu sahəni fəaliyyət növü kimi seçənlər üçün çox cazibədar edir. Babək rayonunun Aşağı Buzqov kəndində yaşayan fiziki şəxs Məhərrəm Eyvazov da bu fikirdədir. O aldığı 10 min manatlıq kreditlə öz arıçılıq təsərrüfatını genişləndirmək istəyir. Sahibkar deyir ki, göstərilən dövlət dəstəyi hesabına arı ailələrinin sayını 120-yə, bal məhsulunun həcmini isə mövsümdə 600-650 kiloqrama çatdırmaq istəyir. Bunun üçün yaxşı imkanlar vardır. İstehsal etdikləri keyfiyyətli məhsula olan yüksək tələbat da onları bu işə həvəsləndirib.

Göründüyü kimi, Naxçıvanda fəaliyyət göstərən bütün sahibkarlar üçün hərtərəfli imkanlar, əlverişli daxili bazar və maliyyə resurslarına çıxışlar vardır. Bunu həmsöhbət olduğumuz sahibkarların fikirlərindən də görmək mümkündür. Yaradılmış şəraitə görə dövlətimizə minnətdarlıq edən sahibkarlar məqsədlərinə çatmaq üçün həvəslə işə girişiblər. Məqsəd isə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin dediyi kimi: ***"Bu gün əsas məqsəd ondan ibarətdir ki, sahibkarlıq mühiti daha da genişlənsin. Daxili bazarda yerli məhsullar hesabına bolluq yaradılsın. Yeni iş yerləri açılsın, məşğulluq təmin edilsin. Muxtar respublikanın ixrac imkanları artsın".***

**Əli CABBAROV**

## Göstərilən dövlət qayğısı təbiətimizin qorunmasına və zənginləşdirilməsinə xidmət edir

***Ölkəmiz dövlət müstəqilliyi əldə etdikdən sonra flora və faunamızın qorunması istiqamətində xeyli irəliləyişlər əldə edib, bir çox beynəlxalq konvensiya və sazişlərə qoşulub, üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsi istiqamətində zəruri addımlar atıb. Azərbaycanda ətraf mühitin mühafizəsi və ekoloji problemlərin həlli ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır.***



Ulu öndərimiz çıxışlarının birində ekoloji problemlərin həlli barədə belə deyib: ***"Təbii sərvətlərə qayğı ilə yanaşılması, planetin genofondunun qorunması, ekoloji sağlamlıq və digər qlobal problemlər ayrılıqda hər bir dövləti ciddi düşündürsə də, onları yalnız birgə səylərlə həll etmək mümkündür".*** Dahi şəxsiyyətin ölkəmizə rəhbərlik etdiyi dövrlərdə bu istiqamətdə kompleks tədbirlər həyata keçirilib, respublikamızın bütün bölgələrində geniş yaşıllaşdırma işləri aparılıb. Həmçinin beynəlxalq təşkilatlarla əlaqələr genişlənib, birgə layihələr hazırlanaraq həyata keçirilib, ekoloji tarazlığın təmin edilməsinə, ətraf mühitin çirkləndirilməsinin qarşısının alınmasına yönəldilmiş bir sıra dövlət proqramlarının icrasına başlanılıb. Nadir və nəsli kəsilmək təhlükəsi ilə qarşı-qarşıya qalan flora və fauna növlərinin qorunub saxlanması məqsədilə milli parklar, dövlət təbiət qoruqları və yasaqlıqları yaradılıb.

Doğma Naxçıvanımızda da flora və faunamızın qorunaraq gələcək nəsillərə ərməğan edilməsi üçün lazımi işlər görülür. Muxtar diyarımızın coğrafi mövqeyi, relyefi, təbii iqlim və torpaq xüsusiyyətləri, təbii su potensialı nəzərə alınaraq ən mühüm ekoloji amil kimi yaşıllaşdırma, meşəsalma və meşəbərpa tədbirlərinə xüsusi diqqət yetirilir. Son illərdə görülən işlər sayəsində xüsusi mühafizə olunan təbiət ərazilərinin coğrafiyası da xeyli genişlənib. Bu gün muxtar respublika ərazisində elə təbiət əraziləri vardır ki, orada dünya əhəmiyyətli nadir bitki növləri və heyvanat aləmi qorunur. Şahbuz Dövlət Təbiət Qoruğu da bu sahədə mühüm əhəmiyyətə malikdir. Görkəmli dövlət xadimi, ulu öndər Heydər Əliyevin 2003-cü il 16 iyun tarixli Fərmanı ilə yaradılan qoruq ətraf mühitin mühafizəsi, nadir və nəsli kəsilməkdə olan bitki və heyvan növlərinin qorunub saxlanması işində geniş pay sahibidir. Onu da qeyd etmək lazımdır ki, qoruq yaradılmazdan əvvəl bu ərazidə olan heyvanların, quşların və bitkilərin bəzilərinin sayı kəskin aşağı düşmüşdü. Lakin dövlət qayğısı ilə həyata keçirilən tədbirlər, görülən işlər nəticəsində bu gün hətta nəsli kəsilməkdə olan heyvanların, quşların sayının artımı müşahidə edilir.

Zəngin bitki örtüyü və heyvanlar aləmi ilə fərqlənən qoruğun ərazisi muxtar respublikanın şimal-şərqindən başlayaraq Naxçıvançayın mənbəyi boyunca, Dərələyəz və Zəngəzur silsilələrinin bir-birindən ayrıldığı ərazidə yerləşir. Biçənək aşırımından əraziyə daxil olan rütubətli hava axını və kontinental iqlim şəraiti burada özünəməxsus bitki növlərinin yayılmasına şərait yaradıb. Qoruğun ərazisi bol su ehtiyatları ilə zəngindir. Burada çox sayda bulaqlar mövcuddur. Zorbulaq, Südlübulaq kimi şirinsulu, Narzan tipli mineral bulaqlar təkcə muxtar respublika sakinlərinin deyil, buraya gələn xarici ölkə vətəndaşlarının da böyük marağına səbəb olur. Ümumiyyətlə, Tanrı bu yerə öz səxavətini əsirgəməyib, buranı əsrarəngiz gözəlliklər məkanına çevirib. İki metr dərinlikdə torf qatına malik, küləyin əsdiyi istiqamətdə aramla hərəkət edən məşhur "Üzən ada" bu yeri daha da cəlbedici edir. Qoruğun ərazisində müxtəlif ağac və kollar, quş növləri, sürünənlər, suda-quruda yaşayanlar, çay və göllərdə müxtəlif balıq növləri vardır. Hazırda burada 32 növ vəhşi heyvan, 127 növ quş, 1580 növ bitki qorunur. Aparılan araşdırmalar nəticəsində burada 39 fəsilədə cəmlənən 80 cinsə aid 111 növ nadir və məhvolma təhlükəsi ilə üzləşən bitki növü müəyyən olunub. Nəsli kəsilməkdə olan heyvan növlərindən qonur ayı, cüyür, vaşaq, nadir bitkilərdən isə zümrüdçiçəyi ələyəz, dəfinəotu, gövdəsiz yumaqotu və başqalarını qeyd etmək olar. Təqdirəlayiq haldır ki, ərazidə mövcud olan nadir bitki növlərinin çoxluğu və həmin bitkilərin gələcəkdə yoxolma ehtimalı nəzərə alınaraq ətraf mühitin ekoloji tarazlığının qorunması məqsədilə onların reintroduksiyası və bioekoloji xüsusiyyətlərinin öyrənilməsi işi müntəzəm olaraq həyata keçirilir.

Ötən dövr ərzində qoruqda əməkdaşların məhsuldar fəaliyyəti üçün hərtərəfli şərait yaradılıb, hər cür imkanlarla təchiz edilmiş iki bina inşa olunub. Hazırda burada 20 əməkdaş fəaliyyət göstərir. Onlar mövsümi geyim və ləvazimatlarla təmin olunublar. Gözətçi məntəqəsində müasir rabitə vasitələri quraşdırılıb. Bu da baş verə biləcək hadisələrin vaxtında aradan qaldırılmasına şərait yaradır. Burada yaradılan İnformasiya Mərkəzində flora, fauna və etnoqrafiya şöbələri fəaliyyət göstərir. Binada torpaq nümunələri, məişətdə istifadə olunan qədim alətlər, ərazidə yetişən dərman bitkilərinin herbariləri, otların ekstraktları, meyvə quruları və heyvan müqəvvaları nümayiş etdirilir. Mərkəzdə görkəmli elm xadimi Həsən Əliyevə aid guşə də yaradılıb. Buraya üz tutan hər kəs tanınmış təbiətşünasın həyat yolu, fəaliyyəti ilə tanış olur. Binanın ətrafında abadlıq işləri görülüb, meyvə ağacları salınıb, maarifləndirici tablolar quraşdırılıb.

Qoruğun əhatə etdiyi 3139 hektar ərazidə gün ərzində əməkdaşlar tərəfindən müşahidələr aparılması üçün məntəqə yaradılıb. Qoruqda iş aparmaq üçün hər cür şərait var. Müşahidə avadanlıqları ərazidə xoşagəlməz halların baş verməsinin qarşısını alır. Belə ki, əgər hər hansı yanğın hadisəsi olarsa, dərhal rabitə vasitəsilə mərkəzə xəbər verilir, müəssisəyə məxsus yanğınsöndürmə avtomobili xüsusi qrup tərəfindən hazırlıq vəziyyətinə gətirilir və beləliklə də, problem vaxtında aradan qaldırılır.

Şahbuz Dövlət Təbiət Qoruğuna hər il yüzlərlə şagird və tələbə də üz tutur. Təşkil olunan ekskursiyalar vasitəsilə gənclər təbiəti qorumağın nə qədər önəmli olduğunu dərk edir, dağlar qoynunda təşkil olunan açıq məşğələlər zamanı bu məkanda qorunan flora və fauna növləri ilə yaxından tanış olur, ekoloji biliklərə əyani surətdə yiyələnirlər.

Qoruq turizmin inkişafına da öz töhfəsini verir. Buraya gələn turistlər ərazinin bənzərsiz təbiət mənzərələri ilə tanış olur, istirahətlərini mənalı keçirirlər. Qoruqda müşahidə aparıldığından turistlərin təhlükəsizliyi ən yüksək səviyyədə təmin edilir.

*Bəli, ətraf mühitin mühafizəsi və ekoloji problemlərin həll edilməsi davamlı inkişaf üçün vacib amillərdən sayılır. Bu gün dövlətimiz tərəfindən qoruq və yasaqlıqlara xüsusi diqqət göstərilməsi təbiətimizin qorunmasına və zənginləşdirilməsinə xidmət edir.*

✍ **Nail ƏSGƏROV**

***Müasir turizm mürəkkəb sahədaxili və sahələrarası inteqrasiya əlaqələrinin mövcud olduğu və kəskin rəqabətin hökm sürdüyü sosial-iqtisadi hadisə, eyni zamanda bir biznes növüdür. Turizmin inkişafı zamanı yaranan çoxsaylı təsərrüfat əlaqələri, buradakı idarəetmə prosesləri, marketinq araşdırmaları və turizm-rekreasiya fəaliyyəti üzrə yeni layihələrin həyata keçirilməsi istiqamətində aparılan elmi tədqiqatlar statistik məlumatların toplanılması və onlardan istifadənin də əhəmiyyətini artırır.***

## Turizmdə əhatəli statistika aparılması günün tələbidir



Turizmdə statistikanın nə qədər əhəmiyyətli olduğunu görmək üçün bəzi rəqəmlərə nəzər salaq. Belə ki, turizmin idarəolunması üzrə ən böyük beynəlxalq təşkilat olan Birləşmiş Millətlər Təşkilatı nəzdində fəaliyyət göstərən Ümumdünya Turizm Təşkilatının (ÜTT) məlumatlarına görə, 2016-cı ildə dünya üzrə 1 milyard 235 milyon nəfər turist hərəkəti qeydə alınmışdır ki, bu da 2015-ci ildəkindən 46 milyon nəfər çoxdur. Həmin dövrdə turizm gəlirləri isə 1 trilyon 220 milyard ABŞ dolları həcmində olmuşdur ki, bu da 2015-ci ildəkindən 24 milyard dollar artıqdır. Ümumiyyətlə isə dünya üzrə səyahət edən turistlərin sayı 1950-ci illə (25 milyon nəfər) müqayisədə 24,7, turizm gəlirləri isə həmin dövrlə (2 milyard ABŞ dolları) müqayisədə 610 dəfə artmışdır. Hazırda turizm dünya üzrə ümumi əmtəə və xidmətlər ixracının 7 faizini təşkil edir. Yenə də ÜTT-nin məlumatlarına görə, 2030-cu ilədək dünya turizmi illik 3,8 faizlik artımla yüksələcək. Nəticədə, dünya üzrə 2020-ci ildə 1,4 milyard, 2030-cu ildə isə 1,8 milyard nəfərin səyahət edəcəyi gözlənilir.

Ölkəmiz üzrə statistik göstəricilərə gəldikdə, 2001-ci ildən üzvü olduğumuz həmin təşkilatın məlumatlarına əsasən 2016-cı ildə Azərbaycan Respublikasına xaricdən 2 milyon 45 min nəfər turist gəlib ki, bu da bir öncəki illə müqayisədə 6,4 faiz çoxdur. Ölkəmizin turizm gəlirləri isə həmin dövrdə 2,714 milyard ABŞ dolları təşkil edib ki, bu da 2015-ci illə müqayisədə 400 milyon ABŞ dolları çox olub. Həmin məlumatlara əsasən ölkəmizin turizm gəlirləri dünya turizm bazarının 0,6 faizini təşkil edib. Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin internet saytında yerləşdirilmiş məlumata əsasən 2017-ci ildə muxtar respublikamıza 413 min 357 turist gəlmiş, 122 min 597 naxçıvanlı isə müxtəlif yerlərə səyahətə çıxmışdır.

Göründüyü kimi, turizm sahəsindəki göstəricilər kifayət qədər cazibədardır. Bu sahədə rəqəmlərin dili ilə danışmaq üçün isə turizmin iqtisadiyyatın müxtəlif sahələri ilə hansı əlaqələri olduğunu bilmək lazımdır. Habelə turizmdə statistik təhlil obyekti kimi səyahət edən turistlər və onların maraqları, ölkə mənşəyi, demoqrafik tərkibi, gəldikləri təyinat yerində gecələmə sayı, eləcə də turist qəbul edən ölkə və yaxud regiondakı turist yerləşdirmə obyektlərinin tutumu, burada mövcud olan digər xidmət sahələrinin sayı və fəaliyyət profilləri maraq doğurur. Şübhəsiz, turizm fəaliyyəti haqqında statistik məlumatlar arasında ən maraqlı göstərici bu fəaliyyətdən əldə olunan gəlirlərdir. Çünki turizm ölkə və ya regionun tanıtım vasitəsi olmaqla bərabər, həm də ənənəvi olmayan sahələr arasında ən yaxşı gəlir, xüsusən də valyuta gəlirləri gətirən bir sahədir.

Bir sistem kimi turizm kənar təsirlərə həssas bir sahədir. Bu baxımdan turizmin statistikasının aparılması bu sahənin müxtəlif makro və mikro səviyyədə inkişafına təsir göstərən amillərin gücünün öyrənilməsini üzə çıxarmaq üçün ən yaxşı metodoloji üsullardan biridir. Dünya bazarında baş verən cari dəyişikliklər, valyuta kurslarındakı dalğalanmalar, fors-major situasiyalar kimi hallar turizmə təsirsiz ötüşmədiyindən onların nəticələrinin statistik təhlili bu sahənin tədqiqi və inkişafı məsələlərində maraq doğurur.

Turizm üzrə elmi ədəbiyyatlarda turizm gəlirlərinin yerli iqtisadiyyata güclü çoxaldıcı təsir etdiyi, xaricdən gələn hər bir turistin 7-9 yeni iş yeri yaratması haqqında faktlar vardır. Bu baxımdan Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatına əsasən 2016-cı ildə muxtar respublikamızda mövcud olan mehmanxana və mehmanxanatipli müəssisələrin xidmətlərindən istifadə etmiş xarici ölkə vətəndaşları üzrə gecələmələrin sayının 43 minə yaxın olmasını nəzərə alsaq, bu qədər sayda əcnəbi turistin nə dərəcədə faydalı olduğu maraq doğurur. Eləcə də turizm kənd təsərrüfatı və sərnişin nəqliyyatı ilə də sıx əlaqəlidir. Bu baxımdan muxtar respublikamıza səfər edən turistlərin hansı nəqliyyat vasitəsindən istifadə etməklə regiona gəldikləri, yaxud Naxçıvanda yüksəkkeyfiyyətli yerli ərzaq məhsulları istehsal edən ailə təsərrüfatlarının turistlərdən nə qədər həcmdə gəlir əldə etdiklərini bilmək bu sahənin gələcək perspektivləri baxımından faydalıdır.

İndi bütün dünyada turistlərin, xüsusilə ölkəyə gələn xarici turistlərin ölkə mənşəyi, onların maraq dairəsi, səfər motivləri, demoqrafik göstəriciləri də statistik məlumatlar kimi toplanılır və lazım gəldikdə onlardan istifadə olunur. Bunların əhəmiyyətini təsdiq etmək üçün, sadəcə, bir misal göstərmək kifayətdir. Məlumdur ki, turizm nə qədər cazibədar olsa da, çox sayda təhlükəsizlik tədbirləri də görməyi tələb edən bir sahədir. Bu baxımdan tutaq ki, hər hansı əcnəbi vətəndaş "turist" adı altında davamlı olaraq bir yerə səyahət edir. Bu, bəlkə də, adi hal ola bilər. İndi elə turizm növləri, məsələn, şoppinq, müalicə və ya işgüzar məqsədli turizm səfərləri vardır ki, turistlər davamlı olaraq, bəzən ayda bir-iki dəfə olmaqla, eyni yerlərə səyahət edirlər. Buna xüsusən sərhədyanı ticarət bölgələrində tez-tez rast gəlinir. Amma turizm nəzəriyyəsində göstərildiyi kimi, eləcə də adi məntiqlə də belə bir fikir söyləmək mümkündür ki, sırf tanışlıq və ya ziyarət məqsədli turist bir yerə etdiyi səyahətin ardından növbəti dəfə həmin yeri deyil, başqa bir istiqaməti seçir. Deməli, turistlərin ölkə mənşəyinə görə aparılan statistika turizmin təhlükəsizliyi və məqsədyönlü idarəolunması baxımından çox yaxşı məlumat bazası ola bilər.

Turizm gəlmə, getmə və daxili turizm tipləri kimi təsnif olunur. Gəlmə turizmin cazibəsindən nə qədər danışsaq da, onu da qeyd etməliyik ki, getmə turizmə olan meyil hər bir vətəndaşda vardır. İndi müstəqil ölkəmizin hər bir vətəndaşı maraq dairəsi və gəlirlərinə görə Azərbaycan torpaqlarını işğal etmiş düşmən ölkədən başqa dünyanın istənilən ölkəsinə səyahət edə bilir. Bu da, əslində, müstəqil ölkədə yaşamağın bəxş etdiyi bir xoşbəxtlikdir. Ancaq məsələyə iqtisadi tərəfdən yanaşdıqda getmə turizmin ona alternativ olan daxili turizmlə əvəz olunması üçün doğru statistikanın aparılmasının əhəmiyyətli olduğunu bir daha görürük. Yəni yuxarıda qeyd olunduğu kimi, ötən il 123 minə yaxın Naxçıvan Muxtar Respublikası sakininin hansı ölkəyə və hansı məqsədlə səyahət etdiyi haqqında əldə etdiyimiz məlumat, onların bir qisminin hansı yollarla daxili turizmə yönləndirilməsi haqqında ilkin ideyalar yaratmağa imkan verərdi. Məsələn, müşahidələr əsasında muxtar respublika sakinlərinin müalicə üçün Türkiyə və İran, istirahət üçün Türkiyə, Gürcüstan, Rusiya və ölkəmizin digər yerlərinə, alış-veriş üçün Türkiyə, Birləşmiş Ərəb Əmirlikləri, ziyarət üçün Səudiyyə Ərəbistanı, İraq, İran kimi ölkələrə səyahət etdiklərini deyə bilərik. Lakin bununla yanaşı, Naxçıvanda istirahət, rekreasiya və asudə vaxtın səmərəli keçirilməsi üçün də çox sayda məkanlar vardır. Elə təkcə kənd turizm növü üzrə ekoturizm və istirahət məqsədilə xaricə üz tutan xeyli sayda muxtar respublika sakininə daxildə daha ucuz qiymətə xidmətlər zərfi təklif etmək mümkündür. Qiymət demişkən, bu amil iqtisadiyyatın bütün sahələrində olduğu kimi, turizmdə də mühüm faktorlardandır. Bazar iqtisadiyyatı şəraitində qiymətlərin mövcud tələbə görə tənzimlənməsi, resurslardan rasional istifadəyə və əmək ehtiyatlarından daha səmərəli faydalanmağa imkan verən şərtlərdəndir. Elə bu səbəbdən turizm kimi mövsümi faktorlara həssas olan bir sahədə çevik qiymət taktikası aparılması üçün statistik baza yaradılmasının əhəmiyyətini göstərə bilərik. Toplanmış məlumatlar əsasında vaxtında aparılan təhlillər turizm sənayesinin davamlı inkişafına, turizm müəssisəsinin fəaliyyətini rentabelli təşkil etmək, baş verə biləcək sosial və ekoloji nəticələrin əvvəlcədən proqnozlaşdırılması üçün nəticəyə gəlmək imkanı yaradır. Proqnozlaşdırma isə istənilən iqtisadi sahənin, o cümlədən turizmin gələcək uğuru üçün ən vacib məsələlərdən biridir.

Muxtar respublikamızda rəsmi statistikanın inkişafına göstərilən dövlət qayğısı turizm sahəsində də statistik göstəricilər sisteminin yaxşılaşdırılmasına geniş imkanlar yaradıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 2 mart tarixli Sərəncamı ilə təsdiq olunmuş "2018-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında rəsmi statistikanın inkişafına dair Dövlət Proqramı"nda turizm sahəsində də statistik göstəricilər sisteminin əhatə dairəsinin genişləndirilməsi nəzərdə tutulmuşdur. Ümid edirik ki, əvvəlki dövrdə olduğu kimi, gələcəkdə də turizm sahəsində həyata keçiriləcək daha əhatəli rəsmi statistika bu mühüm sahədə idarəetmənin təkmilləşdirilməsinə və turizmin planlaşdırılmasının sosial-iqtisadi inkişafın müasir səviyyəsinə uyğun şəkildə həyata keçirilməsinə imkan verəcəkdir.

✍ **Əli CABBAROV**

## Sosial şəbəkələr: müsbət və mənfi tərəfləri

***Müasir həyatımızda informasiya-kommunikasiya texnologiyalarının rolu getdikcə artır. Texnologiyanın inkişafı sosial medianın bir qolu olan sosial şəbəkələrin həyatımıza yol tapmasına gətirib çıxarmışdır. Sosial şəbəkələr artıq həyatımızın ayrılmaz bir parçasına çevrilib desək, yanılmarıq.***

Artıq bir çoxları istəsə də, istəməsə də, sosial şəbəkələrsiz qala bilmir. İstifadəçilər arasında xüsusən gənc nəslin nümayəndələri çoxluq təşkil edir. Onların bir çoxunun istifadə etdiyi sosial şəbəkələrdə “Facebook”, “Twitter”, “İnstagram”, “Google+”, “Vkontakte”, “Odnoklassniki” və başqaları üstünlük təşkil edir.

Hər bir sahədə olduğu kimi, sosial şəbəkələrdən istifadəyə münasibətdə də fikirlər müxtəlifdir. Bir qisim sosial şəbəkələrin bugünkü günümüzdə sosiallaşmaq, dünyanın ən ucqar nöqtəsində olan insanlarla ünsiyyət yaratmaq, fikir bildirmək və qarşılığında cavab almaq, ictimai həyatda baş verən aktual məsələlər ətrafında müxtəlif sorğular təşkil etmək, canlı yayım vasitəsilə iclaslar, müzakirələr keçirmək, olduğun yer haqqında məlumatları dostlarınla audiovizual şəkildə paylaşmaq və digər müsbət xüsusiyyətlərini qeyd edirlər. Digərləri isə düşünürlər ki, sosial şəbəkələr insanların internet asılılığını artırır, mənəvi dəyərləri məhv edir, real həyatdan uzaqlaşdırır. Artıq bu asılılıq insanlarda bir sıra psixoloji problemlərin üzə çıxmasına səbəb olur. Müsahibimiz, psixoloq Gülnarə Muxtarova ilə söhbətimiz də elə bu mövzuda oldu.

Sosial şəbəkələrdən istifadənin müsbət və mənfi tərəflərinə toxunan Gülnarə xanım bunun bugünkü günümüzdə insanların ondan hansı məqsədlər üçün istifadə etdiklərindən asılı olduğunu vurğuladı. Bu şəbəkələrin müsbət tərəflərindən danışan psixoloq bildirdi ki, bu gün sosial şəbəkələr vasitəsilə bizi maraqlandıran hər bir məlumatı asanlıqla əldə edə bilirik. O cümlədən köhnə dost-tanışları tapa, keçmiş münasibətləri bərpa edə, ünsiyyəti genişləndirə, yeni tanışlıqlar yarada bilirik.

Sonda o bildirdi ki, sosial şəbəkədən söhbət məqsədilə istifadə edənlərin sayı bu gün daha çoxdur. Əslində, ondan müzakirə, diskussiya üçün istifadə etmək, qarşılıqlı fikir mübadiləsi aparmaq daha faydalıdır. Təəssüf ki, bizdə qədərindən artıq, özü də lazımsız yerə istifadə edənlərin sayı daha çoxdur.

Sosial şəbəkələrdən kimisi, sadəcə, vaxt keçirmək üçün istifadə edir ki, bu da bir müddətdən sonra asılılıq yaradır. Artıq beş və ya on dəqiqə üçün daxil olduğun sosial şəbəkədə saatlarla qalırsan. İnsanın vaxtını “virtual dünya”ya sərf etməsi real həyatdan uzaqlaşmağa gətirib çıxarır ki, bu da sonralar psixoloji problemlər yaradır. Əvvəlcə vərdiş, sonra isə xəstəlik dərəcəsində asılılıq yaradan sosial şəbəkələr insanlarda depressiya, yuxusuzluq, yorğunluq, aqressivlik, paxıllıq və digər xoş olmayan halların yaranmasına səbəb olur. Bir faktı da qeyd edək ki, sosial şəbəkələr üzündən boşanan ailələrin sayı da artır.

Təəssüflə qeyd etmək lazımdır ki, sosial şəbəkələr səbəbindən intihara cəhd edənlər də az deyil. O cümlədən narkotik aludəçiliyinə cəlbetmə, müxtəlif dini cərəyanların təbliği qarşılaşdığımız mənfi hallardır. Buna görə də azyaşlı uşaqların, xüsusilə yeniyetmələrin sosial şəbəkələrdə çox vaxt keçirmələri təhlükəlidir.

Sosial şəbəkənin gənc istifadəçilərindən biri olan Naxçıvan Dövlət Universitetinin tələbəsi Sərdar Məmmədov, əsasən, “Facebook” və “İnstagram”dan istifadə etdiyini bildirdi: “Bu şəbəkələrdən istifadə səbəbim ölkədə və dünyada baş verən hadisələri, yenilikləri daha tez və rahat formada öyrənməkdir. Sosial şəbəkələrin mənfi və müsbət tərəfləri olduğu danılmazdır. Bu da ondan hansı məqsədlə istifadə edilməsindən çox asılıdır. Yəni bu vasitədən müəyyən müddət ərzində istifadə etmək, gün ərzində daha çox vaxt almasına imkan verməmək lazımdır. Həddindən artıq istifadə başqa işlərə həvəssiz yanaşmağa, tənbəlliyə, psixoloji problemlərin artmasına gətirib çıxarır”.

Digər bir sosial şəbəkə istifadəçisi Nərmin Əkbərli bildirdi ki, sosial şəbəkələrdən qarşıya qoyduğumuz faydalı məqsədlər üçün istifadə olunmalıdır. Sosial şəbəkələr bizdən yox, biz onlardan istifadə etməliyik. Yalnız bu halda onlardan faydalana bilərik.

Qoşqar Hüseynli isə bildirir ki, daim internetdə olmaq insanda bir müddətdən sonra patoloji zərurilik yaradır. İstifadəçilərin böyük əksəriyyəti şəbəkələrdən uzaqlaşmağa çalışırlar, lakin müəyyən müddət keçdikdən sonra yenə ora qayıdırlar. Bu, o deməkdir ki, insanlar şəbəkələrdən birbaşa asılılıqlarını dərk edirlər, lakin heç bir yolla ona qalib gələ bilmirlər. Amma elələri də var ki, sosial şəbəkələrdən istifadədən birdəfəlik imtina ediblər.

Aktiv sosial şəbəkə istifadəçisi Turan Osmanlı isə “Facebook”, “İnstagram” kimi sosial şəbəkələrdən istifadə etdiyini bildirdi. “İnstagram”dan həm biznes yeniliklərini, həm də onu maraqlandıran istifadəçiləri izlədiyini dedi: “Sosial şəbəkələrin müsbət tərəfi buradan elmi yeniliklərlə, yeni iş yerləri ilə bağlı məlumat əldə etmək, hətta pul qazanmağın mümkünlüyüdür. Mənfi cəhəti isə insanları özündən asılı vəziyyətə salmasıdır”

Müasir dövrdə sosial şəbəkələrdən düzgün istifadənin təbliği çox mühüm əhəmiyyətə malikdir. İstifadəçiləri mənfi təsirlərdən qorumaq və insanların şəbəkələrdən düzgün istifadə etməsi üçün maarifləndirmə işi aparılmalıdır.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

## İməciliklər mütəşəkkilliklə davam etdirilir

Muxtar respublikamızda ekoloji tarazlığın qorunması, yeni yaşıllıq sahələrinin həcminin artırılması istiqamətində həyata keçirilən tədbirlər uğurla davam etdirilir. Aprelin 14-də Naxçıvan şəhərində və muxtar respublikamızın rayonlarında keçirilən növbəti iməciliklərdə də yeni yaşıllıqlar salınıb, ağaclara aqrotexniki qulluq göstərilib.



Naxçıvan şəhərində keçirilən iməcilikdə Naxçıvan-Sədərək magistral avtomobil yolunun kənarında yaşıllıqlara aqrotexniki qulluq edilib, suvarma və budama işləri görülüb.

Şərur sakinləri iməcilik ərazilərində ağaclara aqrotexniki qulluq göstərməklə yanaşı, suvarma və ağartma tədbirləri də həyata keçirib, park və xiyabanlarda 3500 ədəd mövsümi gül ştili əkiblər.

Babək rayonunun Qahab, Kərimbəyli, Yarımca, Zeynəddin kəndlərində yol kənarlarında ağaclara aqrotexniki qulluq göstərilib, suvarma və ağartma işləri görülüb.

Ordubad rayonunda Əylis düzündəki “Gənclər bağı”nda isə 22 ədəd həmişəyaşıl ağac əkilib, 1,7 hektarlıq ərazidə suvarma və budama işləri görüblər.

Culfa rayonunda idarə, müəssisə və təşkilatların kollektivləri yaşıllıqlara qulluq göstərib, suvarma işləri aparıblar. Ağacların gövdələri ağardılıb və budama işləri həyata keçirilib.

Kəngərli rayonunda iməcilik, əsasən, Naxçıvan Sənaye Kompleksi və Çalxanqala kəndi arasındakı avtomobil yolunun, həmçinin Xok kəndində yol kənarlarında, rayon Tarix-Diyarşünaslıq Muzeyinin həyətində və Qarabağlar Türbə Kompleksinə gedən yolun ətrafında aparılıb. Bu ərazilərdəki yaşıllıqlarda ağaclara aqrotexniki qulluq göstərilib, 50 ədəd həmişəyaşıl ağac əkilib.

Şahbuz rayonunda da iməciliklər mütəşəkkil keçirilib. Həmin gün Batabat ərazisində yol kənarlarında bərpa məqsədilə 123 ədəd həmişəyaşıl ağac əkilib, kəndlərdə yaşıllıqlara aqrotexniki qulluq göstərilib.

Sədərəklilər isə Heydərabad qəsəbəsindəki 3 hektarlıq bağda, Qaraağac kəndində yol kənarlarında və qəsəbə tam orta məktəbinin həyətində yaşıllıqlara qulluq ediblər.

**Xəbərlər şöbəsi**

## Bir gündə 23 cərrahi əməliyyat aparılıb

Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin həkim və tibb işçiləri ötən şənbə günü Babək Rayon Mərkəzi Xəstəxanasında 23 cərrahi əməliyyat aparıb, əhaliyə zəruri tibbi xidmət göstəriblər.



Həkim-cərrahlardan İsa Abdullayev, İlham İsmayılov, İlhamə Əsgərova, Nazim İbrahimov, anestezioloqlardan Ənvər Şıxəliyev, Aidə Nəcəfova, Məhəbbət Məmmədova, ümumilikdə, 25 nəfərdən ibarət tibbi heyət iştirak edib. Cərrahi müdaxiləyə ehtiyacı olan xəstələr üzərində, əsasən, hemorroidoektomiya, fimoz və başqa əməliyyatlar aparılıb. Xəstəxanada növbəti spinal anesteziya ilə yırtıq əməliyyatı icra edilib. Əməliyyatlar uğurla başa çatdırılıb, xəstələr palatalara köçürülüb, birgünlük müşahidədən sonra evlərinə buraxılıb.

Babək rayonunun Güznüt kəndindən Gülnarə Nəcəfova, Sirab kəndindən Rəfi Məmmədov, Yarımca kəndindən Elton Məmmədov, Nehrəm kəndindən Nizami Novruzov, Babək qəsəbəsindən Adil Cəmilov başqa yerlərə getmədən ərazidə yerləşən səhiyyə müəssisəsində pulsuz əməliyyat olunduqlarına görə minnətdarlıq edib, bütün bunları aztəminatlı ailələrdən olan xəstələrə yönəldilmiş xüsusi sağlamlıq layihələrinin uğurlu icrası kimi dəyərləndiriblər.

Diaqnostika-Müalicə Mərkəzinin həkim və tibb işçiləri yerli həkimlərə tibbi avadanlıqların işləmə qaydalarını da öyrədiblər. Laboratoriyada ümumi analizlərin olunması, infeksiyaların təyini, aparatların işləmə mexanizmi yerli həkim və tibb işçilərinə izah edilib.

Belə humanitar aksiyaların digər rayonlarda da ilboyu keçirilməsi nəzərdə tutulub.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## “Şahin” hərbi-idman oyununun zona birinciliyi başa çatıb



***Daxili Qoşunların “Naxçıvan” Əlahiddə Əməliyyat Briqadasında keçirilən “Şahin” hərbi-idman oyununun Naxçıvan Muxtar Respublikası üzrə zona birinciliyinə yekun vurulub.***

Yarışın keçirilməsində məqsəd məktəblilərin ordu sıralarında hərbi xidmətə hazırlanmasına köməklik göstərməkdən ibarətdir. Oyun 3 tur – məktəbdaxili-seçmə mərhələsi, rayon (şəhər) birincilikləri və zona birinciliyi üzrə keçirilib. Zona birinciliyinə rayon (şəhər) birinciliklərində qalib olan komandalar vəsiqə qazanıblar. Hər komandanın tərkibində 14 nəfər (10 oğlan, 4 qız) VIII və X sinif şagirdləri iştirak ediblər.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra Əlahiddə Ümumqoşun Ordunun zabiti, polkovnik Zaur Həmidov, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin əməkdaşı Elxan Babayev, Fövqəladə Hallar Nazirliyinin əməkdaşı Rəcəb Səfərov, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin əməkdaşı Vüsal Əliyev çıxış edərək yarışın əhəmiyyətini qeyd edib, iştirakçılara uğurlar arzulayıblar.

Əsasnaməyə uyğun olaraq məktəblilər sıra hazırlığı, darağa patron doldurulması və boşaldılması, avtomatın sökülməsi və yığılması, tüfəngdən hədəfə atəş açmaq, fiziki hazırlıq, maneələrin dəf olunması, mülki müdafiə hazırlığı və çadırın qurulması və maskalanması bəndləri üzrə normativləri yerinə yetiriblər.

Sonda hakimlərin qərarına əsasən Naxçıvan şəhər 1 nömrəli tam orta məktəbin komandası qalib adını qazanıb. Ordubad şəhər internat tam orta məktəbin komandası ikinci, Naxçıvan şəhər 14 nömrəli tam orta məktəbin komandası isə üçüncü olub.

Qalib gələn komandalara təşkilatçıların diplom və kubokları, yarışda müxtəlif bəndlər üzrə fərqlənən iştirakçılara isə fəxri fərmanlar təqdim olunub.

Qeyd edək ki, oyun Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Fövqəladə Hallar və Təhsil nazirliklərinin, Əlahiddə Ümumqoşun Ordunun və Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin təşkilatçılığı ilə keçirilib.



## Boks üzrə şəhər birinciliyi keçirilib

Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində “Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq” devizi altında yeniyetmə və gənclər arasında boks üzrə Naxçıvan şəhər açıq birinciliyi keçirilib.

Naxçıvan Muxtar Respublikası Boks Federasiyası və şəhər Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə keçirilən açıq birincilikdə Naxçıvan şəhərinin idmançıları ilə yanaşı, Kəngərli və Şərur rayonlarının yetirmələri də mübarizə aparıblar. Beynəlxalq Boks Federasiyasının qaydalarına uyğun keçirilən birincilikdə 21 çəki dərəcəsində 60 dəri əlcək sahibi qüvvəsini sınayıb.

Sonda hər çəki dərəcəsində yer tutan idmançılar diplomlarla mükafatlandırılıblar.

**✍ Ceyhun MƏMMƏDOV**

## İşaxtaran vətəndaşların nəzərinə!

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti işaxtaranları Naxçıvan Regional Peşə Tədris Mərkəzində xalçaçı peşəsi üzrə kurs keçməyə dəvət edir. Kursun tədris müddəti 3 aydır.

Peşə hazırlığı kursunda iştirak etmək istəyənlər 30 aprel 2018-ci il tarixədək tələb olunan aşağıdakı sənədləri yaşadıqları ərazi üzrə məşğulluq mərkəzlərinə təqdim etməlidirlər:

*1. Yaşayış yerindən arayış*
*2. Şəxsiyyət vəsiqəsinin surəti*
*3. Tibbi arayış.*

***Əlaqə telefonu: 545-42-12***

***İtmişdir***

Türkiyə vətəndaşı Karakuş Zəhra Yılmaz qızının adına Azərbaycan Respublikası ərazisində müvəqqəti yaşamaq üçün verilmiş icazə vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 284